Azərbaycan Qiymətləndiricilər Palatası (AQP)

DÖVLƏT VƏ YERLİ ƏMƏKDAŞLIQ

Palatanın dövlət orqanları və ölkədaxili təşkilatlarla əməkdaşlığının
əsasları, istiqamətləri və formaları

Qiymətləndirmənin nəticəsindən dövlət orqanları, məhkəmələr, banklar, sığorta şirkətləri, auditorlar, sahibkarlar və vətəndaşlar istifadə edir. Hesabatın etibarlılığı onların hər birinin qərarına təsir göstərir. Ona görə Azərbaycan Qiymətləndiricilər Palatası dövlət orqanları və ölkədaxili təşkilatlarla əməkdaşlığı peşənin keyfiyyətinin yüksəldilməsi və qiymətləndirməyə ictimai etimadın möhkəmləndirilməsi vasitəsi kimi qəbul edir.

1. Palata haqqında qısa məlumat

1.1. Azərbaycan Qiymətləndiricilər Palatası 30 noyabr 2024-cü ildə ümumi yığıncaqda təsis edilib. Palata qiymətləndiricilərin məcburi üzvlüyü əsasında yaradılan, özünüidarə prinsipi ilə fəaliyyət göstərən qeyri-kommersiya hüquqi şəxsdir ("Qiymətləndirmə fəaliyyəti haqqında" Qanun, 18.1).

1.2. Palatanın üzvü olmayan şəxslər Azərbaycan Respublikasında qiymətləndirmə fəaliyyəti ilə məşğul ola bilməz (Qanun, 18.2). Bu səbəbdən Palata qiymətləndirmə peşəsini bütövlükdə təmsil edən qurumdur və dövlət orqanları ilə münasibətlərdə peşənin vahid tərəfi kimi çıxış edir.

1.3. Palatanın idarəetmə orqanları ümumi yığıncaq və Rəyasət Heyətidir. Palatanın nəzdində İntizam Komissiyası, Standartlar və metodologiya üzrə komissiya və ixtisaslaşmış işçi qrupları fəaliyyət göstərir.

2. Hüquqi əsas

2.1. Palatanın dövlət orqanları və digər təşkilatlarla əməkdaşlığı "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa (08.12.2023, № 1052-VIQ) əsaslanır:

Qanunun maddəsi	Əməkdaşlıqla bağlı məzmun
6	İxtisas imtahanlarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum keçirir; bu qurum Dövlət İmtahan Mərkəzidir
8.1, 8.2	Dövlət və bələdiyyə əmlakının özgəninkiləşdirilməsi, icbari sığorta hadisəsi nəticəsində dövlət və bələdiyyə əmlakına dəyən zərərin müəyyən edilməsi, dövlət əsas fondlarının yenidən qiymətləndirilməsi hallarında qiymətləndirmə məcburidir; 1 iyul 2027-ci ildən məcburi qiymətləndirməni Palatanın üzvü və ya Palatada akkreditasiyadan keçmiş qiymətləndirici aparır
9.2	Qiymətləndirmə məhkəmənin, inzibati orqanın və ya icra məmurunun qərarı əsasında aparıla bilər; tərəflər qiymətləndiricinin seçilməsi barədə razılığa gəlmədikdə qiymətləndiricini Palata müəyyən edir
15	Sifarişçinin və digər maraqlı şəxslərin qiymətləndiricinin fəaliyyətinə müdaxiləsinə yol verilmir

Qanunun maddəsi	Əməkdaşlıqla bağlı məzmun
17.2	İcra sənədləri əsasında aparılan qiymətləndirmənin haqqının yuxarı həddini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum təyin edir
18.4	Palata qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər verir, üzvlərini dövlət və beynəlxalq təşkilatlar qarşısında təmsil edir, üzvlərin reyestrini aparır və internetdə yerləşdirir, şikayətlərə baxır, üzvlərin informasiya və metodiki təminatını təşkil edir
23	Qiymətləndiricinin peşə məsuliyyətinin sığortası zərərin ödənilməsinin təminatıdır; sığortaya nəzarəti Palata həyata keçirir

3. Əməkdaşlığın prinsipləri

3.1. Palata əməkdaşlığı aşağıdakı prinsiplər əsasında qurur:

- qanunçuluq: əməkdaşlıq Qanunla Palataya verilmiş səlahiyyətlər çərçivəsində aparılır;
- qiymətləndiricinin müstəqilliyi: heç bir əməkdaşlıq konkret qiymətləndirmənin nəticəsinə təsir göstərmək vasitəsi ola bilməz (Qanun, 15);
- bərabər yanaşma: əməkdaşlıq heç bir üzvə və ya qiymətləndirici təşkilata üstünlük yaratmır;
- məxfilik: məlumat mübadiləsində qanunla qorunan sirr və sifarişçinin məlumatlarının məxfiliyi gözlənilir;
- şəffaflıq: bağlanmış əməkdaşlıq sənədləri və onların əhatə sahəsi barədə məlumat açıqlanır;
- sübuta əsaslanma: Palatanın mövqeyi standartlara, metodiki sənədlərə və bazar məlumatına əsaslanır.

4. Dövlət orqanları ilə əməkdaşlıq

4.1. Palatanın dövlət orqanları ilə əməkdaşlığı aşağıdakı sahələri əhatə edir:

Sahə	Əməkdaşlığın məzmunu	Palatanın töhfəsi
Qanunvericilik və normativ baza	Qanunvericiliyin təkmilləşdirilməsi, normativ akt layihələrinin müzakirəsi	“Qiymətləndirmə fəaliyyəti haqqında” Qanuna dəyişikliklər üzrə təklif paketi (elektron hesabat reyestri, daxili keyfiyyət nəzarəti, təşkilatların intizam məsuliyyəti, kütləvi qiymətləndirmə); layihələrə rəy
Peşəyə qəbul və ixtisas imtahanları	İxtisas imtahanlarını Dövlət İmtahan Mərkəzi keçirir (Qanun, 6)	Namizədlərin hazırlığı: tədris proqramları və hazırlıq platforması (aqp.gov.az/imtahan); Palata imtahan suallarına çıxışa malik deyil
Məhkəmə, icra və hüquq-mühafizə orqanları	Məhkəmənin, inzibati orqanın və icra məmurunun qərarı ilə qiymətləndirmə (Qanun, 9.2); hesabatlarla bağlı müraciətlər	Qiymətləndiricinin müəyyən edilməsi; hesabatların ekspertizası; müraciətlərə Qanunun 22-ci maddəsinə uyğun baxılması

Sahə	Əməkdaşlığın məzmunu	Palatanın töhfəsi
Vergi orqanları	Vergi məqsədləri üçün qiymətləndirmə və ekspert rəyləri	Vergi məqsədləri üçün qiymətləndirmə üzrə metodiki tövsiyələr; ekspert rəylərinin keyfiyyəti üzrə tələblərin uzlaşdırılması
Dövlət və bələdiyyə əmlakı	Məcburi qiymətləndirmə halları (Qanun, 8.1)	1 iyul 2027-ci il tarixinə hazırlıq (Qanun, 8.2); reyestr; metodiki sənədlər və keyfiyyətə nəzarət
Məlumat infrastrukturu	Bazar məlumatı, statistika, dövlət informasiya sistemləri	Aylıq AQP indeksləri (daşınmaz əmlak, tikinti, avtomobil); Qiymətləndiricinin Elektron Portalı; hesabatların QR kodla yoxlanılması; portalın digər informasiya sistemləri ilə inteqrasiyası

4.2. Dövlət orqanları Palatanın reyestrindən qiymətləndiricinin Palataya üzvlüyünü və fəaliyyət istiqamətlərini, Qiymətləndiricinin Elektron Portalı vasitəsilə isə hesabatın həqiqiliyini yoxlaya bilər.

5. Ölkədaxili təşkilatlarla əməkdaşlıq

5.1. Palata qiymətləndirmə nəticələrindən istifadə edən və peşənin inkişafına töhfə verə bilən təşkilatlarla əməkdaşlığa açıqdır:

Tərəf	Əməkdaşlıq sahəsi
Banklar və kredit təşkilatları	Girov məqsədli qiymətləndirmənin keyfiyyəti; hesabatların QR kodla yoxlanılması; bazar göstəricilərindən istifadə
Sığorta şirkətləri	Qiymətləndiricilərin peşə məsuliyyətinin sığortası (Qanun, 23); sığorta məqsədli qiymətləndirmə
Ali təhsil və elmi müəssisələr	Tədris proqramları, tələbələrin təcrübəsi, birgə tədqiqatlar, metodiki sənədlərin elmi müzakirəsi
Auditor, mühasib, vəkil və notarius peşə qurumları	Maliyyə hesabatlılığı məqsədli qiymətləndirmə; hesabatlardan istifadə qaydası; peşələrarası məsələlər
Sahibkarlar və işgüzar birliklər	Qiymətləndirmə xidmətlərinin keyfiyyəti; sifarişçilərin maarifləndirilməsi
Kütləvi informasiya vasitələri	Bazar göstəricilərinin və qiymətləndirmə məsələlərinin cəmiyyətə izah edilməsi

6. Əməkdaşlığın formaları

6.1. Əməkdaşlıq aşağıdakı formalarda həyata keçirilir:

- anlaşma memorandumu və əməkdaşlıq sazişi;
- birgə işçi qrupları: Standartlar və metodologiya üzrə komissiyanın nəzdindəki işçi qruplarına dövlət və özəl sektorda təcrübəsi olan ekspertlər cəlb edilir;
- normativ hüquqi akt layihələrinə rəy və təkliflər;
- qanunla qorunan sirr gözlənilməklə məlumat mübadiləsi;
- birgə təlimlər, seminarlar və konfranslar;
- qiymətləndirmə hesabatlarının ekspertizası və ekspert dəstəyi;

- ictimai maarifləndirmə materiallarının birgə hazırlanması.

7. Əməkdaşlığın hüdudları

7.1. Əməkdaşlıq çərçivəsində Palata:

- qiymətləndirmə xidməti göstərmir: qiymətləndirməni Palatanın üzvləri olan qiymətləndiricilər və qiymətləndirici təşkilatlar aparır;
- konkret hesabatın nəticəsini əvvəlcədən razılaşdırmır və onun dəyişdirilməsini tələb etmir; dəyərlə bağlı mübahisəni məhkəmə həll edir (Qanun, 10.4);
- qiymətləndiricinin müstəqilliyini məhdudlaşdıran öhdəlik götürmür;
- üzvlərin müştəriləri və sifarişləri barədə məlumatı qanunla nəzərdə tutulmayan hallarda açıqlamır.

8. Əməkdaşlıq təklifinin göndərilməsi

8.1. Əməkdaşlıq təklifi Palataya rəsmi məktubla göndərilir. Məktubda təşkilatın adı, əməkdaşlığın məqsədi və sahəsi, təklif edilən forma və əlaqələndirici şəxsin məlumatları göstərilir.

8.2. Palata təklifə baxır və nəticəni yazılı bildirir. Razılaşdırılmış sənəd tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən imzalanır; bağlanmış memorandum və sazişlər bu bölmədə dərc edilir. Palatanın əlaqə məlumatları saytın “Əlaqə” bölməsində verilir.